# Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Son illər əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi sahəsində irimiqyaslı layihələr həyata keçirilməkdədir.

Təkcə 2013-cü ildə 150 min hektar torpaq sahəsinin su təminatını yaxşılaşdıracaq, 30 min hektara qədər yeni suvarılacaq sahələrin əkin dövriyyəsinə daxil edilməsinə imkan yaradacaq Taxtakörpü su anbarı istifadəyə verilmişdir. Hazırda tikintisi davam edən Şəmkirçay su anbarının istismara verilməsi nəticəsində daha 50 min hektar əkin sahəsinin suvarma suyu ilə təminatı yaxşılaşacaq, əlavə 20 min hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil ediləcəkdir.

Ötən il ərzində Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayrılmış vəsait hesabına əhalisi 310 min nəfərdən çox olan 29 rayonun 104 yaşayış məntəqəsində 107 subartezian quyusu qazılmışdır.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini və vətəndaşların müraciətlərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əhalisi 622 min nəfərdən çox olan 32 rayonun 223 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 250 subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədi ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 15,0 (on beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 yanvar 2014-cü il
№ 237

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 29 yanvar tarixli 237 nömrəli Sərəncamına
Əlavə

## 2014-cü ildə qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı | Yaşayış məntəqələrinin adları |
|---|---|---|---|
| 1 | Ağcabədi | 13 | Hindarx |
| | | | Yuxarı Qiyaməddinli |
| | | | Mirzəhaqverdili |
| | | | Hüsülü (2 quyu) |
| | | | Rəncbərlər |
| | | | Sarıcalı |
| | | | Kürdlər |
| | | | Kəhrizli |
| | | | Boyat |
| | | | Şərəfxanlı |
| | | | Xocavənd |
| | | | Muğanlı |
| 2 | Ağdam | 19 | Alıbəyli |
| | | | Səfərli (2 quyu) |
| | | | Qərvənd (2 quyu) |
| | | | Ergi (2 quyu) |
| | | | Quzanlı |
| | | | Nəmirli |
| | | | Xındırıstan (4 quyu) |
| | | | Çəmənli (2 quyu) |
| | | | İmamqulubəyli |
| | | | Qaradağlı |
| | | | Zəngişalı |
| | | | Ayaq Qərvənd |
| 3 | Ağdaş | 1 | Nehrəxəlil |
| 4 | Ağstafa | 10 | Köçəsgər |

| | | | |
|---|---|---|---|
| | | | Poylu |
| | | | Göycəli |
| | | | Aşağı Kəsəmən |
| | | | Zəlimxan |
| | | | Aşağı Göycəli |
| | | | Pirili (2 quyu) |
| | | | Kolxəlfəli |
| | | | Qarahəsənli |
| 5 | Astara | 1 | Rudəkənar |
| 6 | Balakən | 10 | Qazbinə |
| | | | Talalar |
| | | | Kortala |
| | | | Püştətala |
| | | | Poştbinə |
| | | | Meşəşambul |
| | | | Katex |
| | | | Şambul |
| | | | Şərif |
| | | | Hənifə |
| 7 | Beyləqan | 5 | Beyləqan şəhəri |
| | | | Birinci Şahsevən |
| | | | Dünyamalılar |
| | | | Yuxarı Aran |
| | | | Sarısu |
| 8 | Bərdə | 17 | Samuxlu |
| | | | Qurdlar |
| | | | Gərənə |
| | | | Divanlı |
| | | | Əmirli |
| | | | Xanxanımlı |
| | | | Xanərəb (2 quyu) |
| | | | Kətəlparaq |
| | | | Kərimbəyli |
| | | | Ərəblər |
| | | | İkinci Hacallı (2 quyu) |
| | | | Bəcirəvan |
| | | | Soğanverdilər |
| | | | Dəymədağıldı |
| | | | Yeni Daşkənd |
| 9 | Cəlilabad | 5 | Məlikqasımlı |
| | | | Uzuntəpə |

| | | | |
|---|---|---|---|
| | | | Hamarqışlaq |
| | | | Əliqasımlı |
| | | | Sabirabad |
| 10 | Füzuli | 10 | Horadiz şəhəri |
| | | | Gecəgözlü (3 quyu) |
| | | | Şpartı |
| | | | Üçüncü Zobucuq |
| | | | Dilağarda |
| | | | 3 № li Qayıdış |
| | | | 4 № li Qayıdış (2 quyu) |
| 11 | Gəncə | 1 | Məhsəti və Şixzamanlı qəsəbələrini əhatə edən ərazidə |
| 12 | Goranboy | 13 | Xınalı (2 quyu) |
| | | | Ağamalıoğlu |
| | | | Bağçakürd (2 quyu) |
| | | | Əhmədabad |
| | | | Səfikürd (2 quyu) |
| | | | Veyisli |
| | | | Qurbanzadə |
| | | | Goranlı |
| | | | Yolpaq |
| | | | Alpout |
| 13 | Göygöl | 8 | Balçılı (2 quyu) |
| | | | Yeni Qızılca |
| | | | Qırıqlı |
| | | | Haçaqaya |
| | | | Quşqara (2 quyu) |
| | | | Xaqani |
| 14 | Xaçmaz | 5 | Yergüc |
| | | | Qusarçay |
| | | | Qoçaqqazma |
| | | | Aşağı Zeyid |
| | | | Pirquluoba |
| 15 | Şamaxı | 1 | Nağaraxana |
| 16 | İsmayıllı | 8 | Kürdmaşı |
| | | | Hacıhətəmli |
| | | | Talıstan |
| | | | Qubaxəlilli |
| | | | Cülyan |
| | | | Kəlbənd |
| | | | Talış |

| | | | |
|---|---|---|---|
| | | | Göytəpə |
| 17 | Qax | 11 | Meşəbaş |
| | | | Əmircan |
| | | | Şotavar |
| | | | Uzuntala |
| | | | Şıxlar |
| | | | Qaysarlı |
| | | | İngiloy Kötüklü |
| | | | Almalı |
| | | | Ağyazı |
| | | | Cəlayir |
| | | | Dəymədağlı |
| 18 | Qazax | 16 | Daş Salahlı ( 2 quyu) |
| | | | Kəmərli (2 quyu) |
| | | | Aslanbəyli |
| | | | Kosalar (2 quyu) |
| | | | Xanlıqlar |
| | | | Dəmirçilər |
| | | | Kommuna |
| | | | Çaylı |
| | | | Birinci Şıxlı |
| | | | Yuxarı Salahlı |
| | | | Aşağı Salahlı |
| | | | Canalı |
| | | | Qaymaqlı |
| 19 | Qəbələ | 3 | Dizaxlı |
| | | | Aydınqışlaq |
| | | | Qaradeyin |
| 20 | Quba | 4 | Qaraçay |
| | | | İkinci Nügədi |
| | | | Zərqava |
| | | | Gədikqışlaq |
| 21 | Qusar | 2 | Quxuroba |
| | | | Mucuq |
| 22 | Lənkəran | 1 | Cil |
| 23 | Masallı | 1 | Masallı şəhərinin İsgəndərli ərazisi |
| 24 | Oğuz | 5 | Yaqublu |
| | | | Tərkeş |
| | | | Malıx |
| | | | Xalxalqışlaq |
| | | | Ərmənət |

| | | | |
|---|---|---|---|
| 25 | Samux | 13 | Qiyaslı |
| | | | Alabaşlı |
| | | | Seyidlər |
| | | | Tatlı |
| | | | Əli Bayramlı |
| | | | Aşağı Ağasıbəyli ( 2 quyu) |
| | | | Əhmədbəyli |
| | | | Yuxarı Ağasıbəyli |
| | | | Qarayeri |
| | | | Hacıalılı |
| | | | Qədili |
| | | | Sarıqamış |
| 26 | Şəki | 12 | Əliyar |
| | | | Daşüz |
| | | | Çapağan |
| | | | Cəfərabad |
| | | | Aşağı Layısqı |
| | | | Köbər Zəyzid |
| | | | Aşağı Göynük |
| | | | Aşağı Küngüt |
| | | | Göybulaq |
| | | | Qozlubulaq |
| | | | Baş Göynük |
| | | | Oraban |
| 27 | Tərtər | 6 | Köçərli |
| | | | Qazyan |
| | | | Sarıcalı (Düyərli inzibati ərazi dairəsi) |
| | | | Hüsənli |
| | | | Kəbirli |
| | | | Xoruzlu |
| 28 | Tovuz | 14 | Qovlar (2 quyu) |
| | | | Yuxarı Öysüzlü |
| | | | Əlimərdanlı |
| | | | Əyyublu |
| | | | Aşağı Quşçu |
| | | | Qədirli |
| | | | Düz Qırıqlı (3 quyu) |
| | | | Əlimərdanlı |
| | | | Alakol (3 quyu) |
| 29 | Yevlax | 4 | Malbinəsi |

| | | | |
|---|---|---|---|
| | | | Balçılı |
| | | | Hürüuşağı |
| | | | Nərimanabad |
| 30 | Zaqatala | 17 | Əliabad |
| | | | Danaçı |
| | | | Bəhmətli |
| | | | Kəpənəkçi |
| | | | Aşağı Çardaxlar |
| | | | Çobankol |
| | | | Yuxarı Tala |
| | | | Dombabinə |
| | | | Aşağı Tala |
| | | | Mosul |
| | | | Göyəm |
| | | | Mamrux |
| | | | Zəyəm |
| | | | Sumaylı |
| | | | Yeni Suvagil |
| | | | Bazar |
| | | | Gözbarax |
| 31 | Xocavənd | 1 | Nərgiztəpə |
| 32 | Şəmkir | 13 | Mahmudlu |
| | | | Posallı |
| | | | Düyərli |
| | | | Zəyəm Cırdaxan |
| | | | Keçili |
| | | | Qaracəmirli |
| | | | Aşağı Seyfəli |
| | | | Yeniabad |
| | | | Dəllər Cəyir |
| | | | Qasım İsmayılov |
| | | | Qılıncbəyli |
| | | | Zəyəm |
| | | | Sabirkənd |
| | **Cəmi** | **250** | **223** |